national composition school that introduced Azerbaijan to the world, has a special place in the development of children's piano music. The composer's children's piano music is one of the leading genres in his work.

In the article, K.Karayev's "6 children's plays" and "6 medium difficulty plays" for children's piano were reviewed and their characteristic features were analyzed. The analysis of the features of the moment-intonation in the plays is given, their colorful imagery and how to characterize the musical language with means of expression in the opening of the content is shown.

***Rəyçi: baş müəllim Məmmədova R.***
***GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli iclasın 02 saylı protokolu***
***Daxil olma tarixi 12 oktyabr 2022-ci il***

**UOT:781.**

# MƏKTƏBLİLƏRİN MUSİQİ TƏRBİYƏSİNDƏ "ŞÜŞTƏR" MUĞAMINDAN İSTİFADƏNİN İMKAN VƏ YOLLARI

***Məmmədova Rəşidə Hamlet qızı***
***Gəncə Dövlət Universiteti***
*rashida.mamedova.68@mail.ru*

**Xülasə:** *Muğam kamilliyə gedən yolun başlanğıcıdır, həyatı, kainatı dərk etmək üçün Allah tərəfindən insanlara verilmiş nemətdir.*

*Muğamlar Azərbaycan xalq musiqisinin digər janrlarından əsaslı şəkildə fərqləndiyi üçün məktəblilərin musiqi qabiliyyətinin, mənəvi zənginliyinin inkişafına təsir imkanları da spesifik xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlərin əsas mahiyyətini açmaq, pedaqoji istiqamətlərini daha aydın şəkildə nəzərə çatdırmaq çox mühüm vəzifələrdən sayılır.*

*"Şüştər" muğamının məktəblilərin milli estetik şüurunun formalaşmasında, klassik milli dəyərlərin təkrarolunmaz gözəlliyini nümayiş etdirmək yönəmində böyük tərbiyəvi əhəmiyyəti vardır.*

**Açar sözlər:** musiqi, bəstəkar ,muğam, məktəbli, Şüştər
**Ключевые слова:** музыка, композитор, мугам, ученик, Шуштер
**Key words:** music, composer, mugham, shcoolchildren, Shushtar

Muğam əcdadlarımızın yaşadığı qədim dövrdən xəbər verən, uzaq və yaxın keçmişimizi özündə əks etdirən bu günümüzlə səsləşən və gələcəyə cəsarətlə addımlayan musiqi janrıdır.

Azərbaycan musiqisinin bütün şərqdə böyük şöhrət qazandığını qeyd edən orta əsr mütəfəkkirlər, şairlər və musiqişünas alimlərimizdən: Bəhmənyar (XI əsr), Qətran Təbrizi (XI), Nəsirəddin Tusi (XII), Nizami Gəncəvi (XII), Xaqani Şirvani (XII), Səfiəddin Urmavi (XIII), Əbdülqadir Marağai (XIV), Mir Möhsün Nəvvab (XIX) musiqi, musiqi alətlərimiz ilə yanaşı muğam haqqında söylədikləri elmi- fəlsəfi fikirlər çox zəngindir.

Professor Sevda Qurbanəliyeva yazır: "Azərbaycan muğamı əsrlərlə cilalanmış, böyük təkamül və inkişaf yolu keçərək çağdaş günlərimizədək gəlib çatmışdır. Muğam təkcə uzaq keçmişin abidəsi deyil, o müasir həyatımızın da ayrılmaz hissəsidir" [ 6.11].
Muğam bu gün milli Azərbaycan təfəkkürlü insanlar formalaşdırmaq üçün ən yaxşı vasitədir.

“.....Azərbaycan musiqisi muğamat üzərində qurulmuşdur. Eyni zamanda Azərbaycan zövqü deyil, bütün Qafqaz, Şərq xalqlarının bədii zövqüdür...”[7.22]

Müasir ümumtəhsil məktəblərinin musiqi dərslərində digər janrlarla bərabər, klassik muğamlarımız (“Şüştər”) vasitəsilə məktəblilərdə Vətənə məhəbbət, cəsurlur, qoçaqlıq, qəhrəmanlıq, doğruçuluq, düzgünlük, əqidə saflığı, namusluluq, şərəflilik kimi mənəvi keyfiyyətlərin musiqi dərslərində tədris olunan muğamlar vasitəsilə mənəvi-estetik tərbiyyənin formalaşdırılması prosesində daha səmərəli şəkildə istifadə olunurlar.

Vətənə, doğma yerlərə məhəbbət qədim zamanlardan Azərbaycan xalqına xas olan xüsusiyyət olmuşdur. Bu xüsusiyyət el arasında böyüklərdən kiçiklərə bir varislik kimi keçmişdir.

Klassik muğamlarımızın bir sıra şöbələri (“Şüştər”) məktəblilərdə vətənpərvərlik, xalqa, Vətənə, ata-anaya,torpağa sevgi kimi hissləri özündə əks etdirir.

Azərbaycan muğamlarının hər bir nümunəsi (“Şüştər”)mənəvi tərbiyə prosesində böyük potensial imkanlara malikdir. Bu əvəzsiz sənət nümunələrindən dərs prosesində, habelə fənnlərarası əlaqə yolu ilə digər incəsənət nümunələrindən də kompleks şəkildə istifadə etmək, tərbiyəvi amilləri daha aydın şəkildə üzə çıxarmaq mümkündür.

Muğamlarımızın tədrisi prosesində verilən tarixi məlumatlar öz növbəsində məktəblilərin bilik dairəsinin genişlənməsinə,mənəvi zənginliyinin artmasına qüvvətli təsir göstərir.

“Şüştər” - əsas Azərbaycan muğam dəstgahlarına aiddir. Şüştər termini bir muğam adı kimi yayılmışdır. Bildiyimiz kimi şüştər ruhi təsir cəhətdən dinləyiciyə dərin kədər hissi oyadır. “ "Şüştər” muğamı təzadlı muğamdır. Çünki qəmgin hisslər doğuran bu muğam insanları,dinləyiciləri nikbin olmağa ruhlandırır. Dinləyici sanki dərdini bölüşməyə, qüssəsinin hərarətini soyutmağa adam və ya yer axtarır. İnsan xəyala dalır, düşünür, hisslərə qapılır” [ 8.185].

R.Zöhrabov qeyd edir: “ “Şüştər” eyni zamanda dünya, kainat mənasını da daşıyır” [8.147].

“Şüştər” muğamı mənəvi və estetik – emosional təsirinə görə insanlara qəmginlik aşılayır. Dinləyicini düşünməyə, xəyala dalmağa təhrik edir, xalqımızın başına gəlmiş müsibətləri, ata-babalarımızın qəmli, qara günlərini sanki göz önünə gətirir. Muğamlar haqqında aşağı siniflərdən başlayaraq məktəblilərə onların başa düşəcəyi şəkildə məlumat verilməsinə N.Məlikməmmədovun II sinif üçün yazdığı “ Musiqi” dərsliyində də xüsusi diqqət yetirilmişdir. Bu cəhətdən həmin dərslikdə “Şüştər” muğamı haqqında verilən nəzəri məlumat böyük maraq doğurur : “Şüştər”, xalqımızın çox qədimdən dinlədiyi muğamlardan olub, təkcə Azərbaycanda deyil, bir çox başqa qonşu ölkələrdə də yayılmışdır. Bu muğam başqa muğamlardan fərqli olaraq,yalnız instrumental ifa edilir, yəni oxunmur.”Şüştər” muğamı iki şöbədən ibarətdir. “Şüştər”in mayesi və tərkib. Bu muğam kamançada xüsusilə gözəl səslənir”.[ 8.16] Dərslikdə verilən həmin mətn müxtəsər şəkildə olsa da “Şüştər” muğamının bədii-estetik mahiyyəti haqqında müəyyən təsəvvür yaradır. Məktəblilərə muğamlarımız haqqında dərsliklərdə bu cür anlaşıqlı məlumatların verilməsi təqdirə layiqdir.
Mənəvi və estetik-emosional təsirinə görə bu muğam insanlarda qəm,qüssə,dərin kədər hissi oyadır.Vaxtilə zülm altında inləmiş xalqımızın,nakam oğul və qızlarımızın əzablı günlərini yada salır, insanları birliyə çağırır.

Dahi Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəyli muğamlarımızın milli musiqi sənətimizin inkişafındakı mövqeyini, geniş imkanlarını çox gözəl duyaraq bütün yaradıcılığı boyu bu əvəzsiz sənət incilərinə, onların lad əsaslarına xüsusi diqqət yetirmiş, hissi - emosional təsir xüsusiyyətlərini müəyyən etmişdir:

“Bədii ruhi təsir cəhətindən “Rast” dinləyicidə mərdlik və gümrahlıq hissi, “Şur” şən, lirik əhvalı - ruhiyyə, “Segah” məhəbbət hissi, “Şüştər” dərin kədər, “Çahargah” həyəcan və ehtiras, “Bayatı - Şiraz” qəmginlik, “Humayun” isə “Şüştər”ə nisbətən daha dərin bir kədər hissi oyadır” [ 9.15].

Böyük şairimiz Səməd Vurğun Azərbaycan muğamlarının əhəmiyyətindən bəhs edərək demişdir: “Bizim muğamlarda bədbinlik yoxdur. Nə üçün mən “Rast”a, “Şüştər”ə qulaq asanda ağlayım? Mən heç bədbin olmaram, ruhdan düşmərəm. “Şüştər” rast çalandıqda onun elə əzəmətli yeri var ki elə bil ki qarşından karvan keçir, həyatı, təbiəti hiss edirəm” [7.23 ].

“Şüştər” muğamı Vətənimizin, xalqımızın başına gəlmiş dəhşətli hadisələrdən danışır.”Şüştər” muğamını dinləyən məktəblilər ruhdan düşməməli,əksinə Vətənin gələcək xoşbəxtliyi uğrunda mübarizəyə qoşulmalı, daha çox oxuyub öyrənməli, geniş biliyə malik olmalıdırlar.

Akademik T.Bünyadov yazır: “...Laylamdı, qeyrətimdi muğamlar. Tərbiyəmdi, qəmli gözləri yaşarandı muğamlar. Bəli, Allah vergisi,tanrı payımız, ilahi qismətimizidir muğamlar.Qaranlığa işıq salan, insanlara nur paylayan günəşdi, aydı, ulduzdu, təlim-tərbiyə lisanımızdı muğamlar...” [ 2.60-61]

Muğamlarımız mübarizə ruhu yaratmaq imkanlarına malikdirlər. Xalqımızın başına gələn müsibətlər, bütövlükdə Vətənin faciəsi ilə əlaqədar hisslər yarada bilən muğam və muğam şöbələri də vardır. Bu mənada müxtəlif tarixi hadisələri, o cümlədən xalqımıza zülm edilən 20 yanvar 1990-cı ilin dəhşətlərini əks etdirməklə “Şüştər” muğamı daha səciyyəvi təsir imkanlarına malikdir.

Göründüyü kimi klassik Azərbaycan muğamlarının (“Şüştər”) şöbələri,mənəvi estetik təsiri müxtəlifdir. Buna görə də aşağı siniflərdən başlayaraq çox gözəl, bitkin, dəyərli əsər təsiri bağışlayan muğamlarla məktəbliləri tanış edərkən əyaniliyə, daha maraqlı iş formalarına, yeni təlim üsullarından istifadə etməyə diqqət yetirilməlidir. Hər bir muğam və onun müvafiq şöbəsi ilə əlaqədar verilən maraqlı məlumatlar məktəblilərin musiqi-estetik görüşlərini inkişaf etdirir.

Fəlsəfə elmləri doktoru, professor Gülnaz Abdullazadə yazır: “Muğamlarımızın fəlsəfi-estetik mahiyyəti ilə bağlı deyilən fikirlər eyni zamanda təlim- tərbiyə prosesində, muğamlar haqqında söhbət açılan onların dinlənilməsi təşkil olunan müxtəlif xarakterli musiqi dərslərində geniş istinad olunmalıdır, çünki muğamlar zəngin musiqi sərvəti olmaqla yanaşı eyni zamanda mənəvi zənginlik, mənəvi tərbiyə vasitəsidir [1.9 ].

Müasir Azərbaycan xalq musiqisinin məqam əsasları ilk dəfə böyük bəstəkarımız Üzeyir Hacıbəyli tərəfindən işlənilmiş və müəyyən sistemə salınmışdır. Azərbaycan məqamları sistemini 7 əsas və 3 əlavə məqam təşkil edir. Rast, şur, segah, şüştər, çahargah, bayatı- şiraz və humayun Azərbyacan musiqisinin 7 əsas məqamıdır. Üç əlavə məqam şahnaz, sarənc və II növlü cahargahdan ibarətdir. Üzeyir Hacıbəyli xalq musiqimizin əsaslandığı 7 müxtəlif lad-məqam müəyyən etmiş və onları muğamların adı ilə adlandırmışdır. Üzeyir Hacıbəyli tərəfindən müəyyənləşdirilən bu məqamlar ola bilsin ki, tamamilə başqa cür adlana bilərdi, lakin hər belə məqam hansı muğamın əsasını təşkil edirsə, Üzeyir Hacıbəyli onu həmin muğamın adı ilə də adlandırmışdır.

Beləliklə, məlum olmalıdır ki, eyni adlı məqam ilə muğam arasında müəyyən fərq vardır, yəni Rast məqamı Rast muğamı demək deyildir və yaxud da Şur muğamı Şur məqamı olmayıb, bir - birindən müəyyən xüsusiyyətlərinə görə də fərqlənir [ 3.16].

Bu məqamlarda eyni adlı muğamların fərqi ondan ibarətdir ki, onlardan biri-muğam bədii estetik təəsürat doğuran canlı musiqi nümunələri olduğu halda,digər məqam isə muğamların bir növ fərəqə sütununu təşkil edən müəyyən səs sıralarından ibarətdir, yəni

“ Şur” muğamı eyni adlı “ Şur” məqamında “Rast” muğamı “Rast” məqamında, “Şüştər” muğamı “Şüştər” məqamında və s.qurulur və ona əsaslanır.[ 4.9-10.]

“Şüştər” lad – məqam kimi də Azərbaycanda özünə təşəkkül tapmış 7 əsas muğamdan biridir. XIX əsrin sonlarında bu muğam dəstgahı 13 şöbə və guşəni özündə cəmləşdirirdi. Ü.Hacıbəylinin rəhbərliyi ilə 1925-ci ildə “Muğam şurası” tərəfindən qəbul edilmiş proqramda “Şüştər” 8 şöbə və guşəni əhatə etmişdir. Bu dəstgaha 5 şöbə və güşə daxildir. Ümumtəhsil məktəblərinin musiqi proqramlarında digər muğamlarla birgə öz əksini tapan “Şüştər” muğamı daha həyati mövqedən,anlaşıqlı şəkildə şərh edilməsi üçün ayrı-ayrı şair və yazıçılarımızın müvafiq əsərlərindən də istifadə olunur. Hər bir muğam və onun müvafiq şöbəsində əlaqədar verilən maraqlı məlumatlar məktəbllilərin musiqi-estetik görüşlərinin inkişaf etdirir. Məktəblilərin bir sıra muğamların (“Şüştər”) onların müvafiq şöbələrinin dinlənilməsinin təşkilində, bu yolla tədrisində əsas məqsəd milli musiqi ladlarımız əsasında yaranan eyni adlı muğamlarımız vasitəsilə məktəblilərin estetik tərbiyəsini, mənəvi zənginliyini, musiqi inkişafını, bədii-estetik qabiliyyətlərini inkişaf etdirməkdən ibarətdir.

Muğamların təhsil və tərbiyəvi əhəmiyyəti bu janrlardakı ayrı-ayrı nümunələrin, o cümlədən digər muğamlarla bərabər “Şüştər” muğamı eyni adlı ladların məktəblilərinin musiqi- estetik inkişafındakı rolu , imkanları pedaqoji-metodik vəsaitlərdə daha çox nəzərə çarpmışdır.

Klassik muğamlarımızın (“Şüştər” ) əksəriyyəti “Musiqi” dərsinin müxtəlif mərhələlərində özünə yer tapmışdır ki, bunun da məktəblilərin estetik tərbiyəsi sistemində, onların musiqi mədəniyyətinin formalaşmasında böyük əhəmiyyəti vardır.

Muğamlarımızın dinlənilməsi prosesində klassik ladlarımız və bəstəkarlarımızın bu ladlar əsasında yaratdıqları kiçik və iri həcmli vokal və instrumental əsərlərdən, xüsusilə Azərbaycan bəstəkarlarının simfonik muğamlarından gətirilən nümunələr üzərində dayanılması, xarakterik müqayisələrin aparılması, nəzəri məlumatların verilməsi, məktəblilərin musiqi hafizəsini, fikir mühakimə yürütmə qabiliyyətlərini inkişaf etdirir.

“Şüştər” muğamının tərbiyəvi əhəmiyyətini məktəblilərə daha əlverişli şəkildə çatdırmaq məqsədilə bu janrın bədii – estetik mahiyyətini açıqlayan hikmətli fikirlərə, bədii əsərlərə, müvafiq elmi-tədqiqat işlərindən nümunələrə və yeni təlim üsullarından lazımi yer verilməsi və istifadə olunması məktəblilərin estetik mədəniyyətinin inkişafına. Formalaşmasına möhkəm zəmin yaradır.

Professor N.K.Kazımov yazır : “ Muğamların məna dəyərləri, estetik mahiyyəti haqqında təsəvvürlərin formalaşdırılması çox mühüm məsələdir...”[5.7]

Muğam bizim azadlığa və müstəqilliyə qovuşduğumuz məsud anların fərəhi, sevincidir. Muğam dərdli günlərimizdə – Yanvar qırğını, Xocalı soyqırımı, Qarabağ faciəsinin qara günlərində təskinliyimiz, Şəhidlərimizin tökdüyü qanımız, torpaqlarımızın alınmasında çaldığımız zəfərimizdir. Muğam bunu əsrlər, minilliklər boyu qoruyub saxlayan xalq kimi ölməzdir, əbədidir.

UNESCO-nun xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın yazdığı kimi: "Muğam bizim qəlbimizin xüsusi məqamıdır… Muğam dəryasının sualtı cərəyanları çoxdur, bu cərəyanlara daldıqca biz insan hisslərinin sirli yelpazəsinin istiliyini hiss edə bilirik, varlığı onun bütün müxtəlifliyində dərk edirik. Elə buna görə də biz muğama dönə-dönə qayıdırıq. O artıq bizim həyatımızın bir hissəsi deyil, o bizim özümüzdür”.

### *Ədəbiyyat*

1. Abdullazadə Q. “Muğam” , Bakı, 1983, 120 s.
2. Bünyadov T. Əsrlərdən gələn səslər. Bakı.1993.297 s.

3. Xəlilov V. “Muğamların tədrisinə dairf metodik tövsiyyələr”, Bakı, 1982,67 s.
4. İsmayılov M.S. Azərbaycan xalq musiqinin janrları. Bakı,1984.100 s.
5. Kazımov N.K. Ümumtəhsil məktəblərində muğamların tədiri məsələləri. Bakı,2000. Səh.7
6. Qurbanəliyeva S. “Şəxsiyyət və musiqi”, Bakı, 2010, 160 s.
7. Qasımov Q. “Xalq şairi və xalq musiqisi” , “Elm və həyat jurnalı”,Bakı, 1966, № 10, 22 s.
8. Məlikməmmədov N. Musiqi II sinif üçün dəslik. Bakı, 1974.132 s.
9. Zöhrabov R. “Muğam”,Bakı, 1991, 219 s.

**Saytoqrafiya:**

10. www .musiqi-dünya.az

## ПУТИ И ВОЗМОЖНОСТИ ИСПОЛЪЗОВАНИЯ МУГАМА “ ШУШТАР” В МУЗЫКАЛЪНОМ ВОСПИТАНИИ ШКОЛЪНИКОВ

***Мамедова Рашида Гамлет кызы***

***Резюме***

Мугам – это начало пути к совершенству, божий дар к пониманию и осмыслению жизни вселенной. В силу того, что мугамы коренным образом отличаются от других жанров Азербайджанской народной музыки, они обладают специфическими возможностями воздействия на музыкальные способности и нравственное обогащение школьников. Одной из основных задач является подробное рассмотрение значения этих особенностей, наглядный показ и описание педагогических направлений.

Мугам «Шуштар» имеет большое воспитательное значение в формировании национальных эстетических представлений и сознательности школьников, и в аспекте демонстрирования неповторимой красоты и величия классических национальных ценностей.

## POSSIBLITIES AND WAYS OF USING “ SHUSHTAR MUGHAM IN MUSIC EDUCATION OF SCHOOLCHILDREN

***Mammadova Rashida Hamlet***

***Summary***

Mugham is the beginning of the path to perfection, a blessing given to people by God to understand life and the universe. Since mughams are fundamentally different from other genres of Azerbaijani folk music, they also have spesifik features to influence the development of musical ability and spiritual richness off schoolchildren. It is considered one of the most important tasks to reveal the main essence of these features, to more clearly concider their pedagogic directions.

“Shushtar” mugham has great educational importance in the formation of the national aeshetic consciousness of schoolchildren, in the direction of demostratinc the inimitable beauty of classical national values.

***Rəyçi: baş müəlllim Məmmədova Q.***
***GDU-nun “Musiqi fənləri” kafedrasının 26 oktyabr 2022-ci il tarixli içlasın 02 saylı protokolu***
***Daxil olma tarixi 12 oktyabr 2022-ci il***